

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 235 (21.387)

*1 dekabr 2015-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan şəhərindəki muzeylər ziyarət olunub



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq, muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin olunub.***

Noyabrın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksini ziyarət ediblər.

Məlumat verilib ki, görkəmli şair-dramaturq Hüseyn Cavidin ev-muzeyi ədibin anadan olmasının 100 illiyi ilə əlaqədar 1982-ci ildə onun yaşadığı evdə yaradılıb. Muzeyin fondunda 9 mindən yuxarı eksponat qorunub saxlanılır ki, hazırda bu eksponatların 500-ə yaxını ekspozisiyada nümayiş etdirilir. Muzeydə ədibin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, əsərlərinin ilk nəşrləri, üzərində şairin avtoqrafı olan əsərlər, tamaşaya qoyulmuş dram əsərlərinin afişa və proqramları, müxtəlif xatirə və ev əşyaları, şairin oğlu Ərtoğrol Cavidin və qızı Turan xanımın əsərləri, Hüseyn Cavid haqqında müxtəlif dövrlərdə nəşr olunmuş kitablar görkəmli ədibin həyat və yaradıcılığı barədə dolğun təəssürat yaradır.

Xatirə kompleksini ziyarət zamanı qeyd olunub ki, böyük ədibin xatirəsinin əbədiləşdirilməsində, onun zəngin irsinin qorunub saxlanılmasında ümummilli lider Heydər Əliyevin əvəzsiz rolu, misilsiz xidmətləri olub. 1982-ci ilin noyabr ayında məhz ulu öndərin təşəbbüsü və böyük qayğısı nəticəsində ölməz şairin nəşi uzaq Sibirdən öz doğma yurduna – Naxçıvan torpağına gətirilib, burada dəfn olunaraq xatirəsi əbədiləşdirilib. 1996-cı ildə ulu öndər Heydər Əliyevin himayəsi ilə ədibin məzarı üzərində əzəmətli məqbərə ucaldılıb.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollektivləri də Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Milli Təhlükəsizlik və Daxili İşlər nazirliklərinin kollektivləri Xatirə Muzeyində, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları Bəhruz Kəngərli Muzeyində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları isə Cəlil Məmmədquluzadənin ev-muzeyində olublar.

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

2015-ci ilin noyabr ayı ərzində Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir. Belə ki, "Naxçıvan Muxtar Respublikasında sosial müavinətlərin, təqaüdlərin və kompensasiyaların təyin olunması üçün təqdim edilən sənədlərin rəsmiləşdirilməsi, baxılması və saxlanılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 noyabr tarixli qərarı qəbul edilmişdir.

Qəbul edilmiş qərarda qeyd olunur ki, bu Qaydalar Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Təminat Xidmətinin şəhər, rayon əhalinin sosial müdafiəsi mərkəzləri tərəfindən sosial sığorta ödəyicisi və əmək pensiyası hüququ olmayan şəxslərə sosial müavinətlərin, ayrı-ayrı kateqoriya şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin və kompensasiyanın təyin olunması üçün təqdim edilən sənədlərin rəsmiləşdirilməsi, baxılması və saxlanılması məsələlərini tənzimləyir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 noyabr tarixli qərarı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında bələdiyyə qulluğuna müsabiqənin elan edilməsi, sənədlərin qəbulu, müsabiqənin keçirilməsi və nəticələrinin qiymətləndirilməsi Qaydası"na əsasən, on altı yaşına çatmış, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, əmlak vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, ictimai və digər birliklərə mənsubiyyətindən asılı olmayaraq, müvafiq vəzifənin tələblərinə uyğun peşə hazırlığına malik olan və Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilən, habelə bələdiyyə qulluğuna qəbul edilmək üçün qanunvericiliklə müəyyən olunmuş şərtlərə cavab verən Naxçıvan Muxtar Respublikasında yaşayan Azərbaycan Respublikasının vətəndaşları bələdiyyə qulluğuna qəbul edilmək üçün müsabiqəyə buraxılırlar.

Qəbul edilən normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində ***(www.huquqiaktlar.nakhchivan.az)*** tanış olmaq mümkündür.

## "Dövlətçilik tariximiz və atributlar: Naxçıvan xanlığının bayraqları" mövzusunda konfrans



"Son illər Naxçıvan xanlığı ilə bağlı aparılan tədqiqatlar Naxçıvan xanlığına aid bayraqlar, rəmzlər haqqında maraqlı faktların əldə edilməsinə səbəb olmuşdur". Bu fikir noyabrın 30-da Naxçıvan şəhərindəki "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində "Dövlətçilik tariximiz və atributlar: Naxçıvan xanlığının bayraqları" mövzusunda keçirilən konfransda səsləndirilmişdir.

Konfransı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova Naxçıvan xanlığına aid bayraqlar haqqında məlumat vermişdir.

Qeyd edilmişdir ki, Naxçıvan xanlığının bayraqları Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı, tarix üzrə fəlsəfə doktoru, bayraqşünas Pərvin Gözəlov tərəfindən Sankt-Peterburq şəhərinin Ermitaj Muzeyinin bayraq fondunda və arxivində aparılan elmi tədqiqatlar nəticəsində aşkarlanmışdır. Naxçıvan xanlığının bizədək gəlib çatan bayraqlarından biri 1812-ci ilin 19-20 oktyabrında Aslandüz döyüşündə general-mayor Pyotr Kotlyarevski tərəfindən qənimət kimi götürülmüş döyüş bayrağıdır. Dövlət bayrağı isə 1827-ci ildə xanlığın işğalı zamanı general Paskeviç tərəfindən qənimət kimi əldə edilmiş bayraqdır. Dövlət bayrağı bu günə qədər müxtəlif xarici muzeylərin fondlarında "XVIII-XIX əsr müsəlman bayrağı" kimi saxlanılmışdır.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim və orta əsr tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru İlhami Əliyev "Naxçıvan xanlığının siyasi atributları: dövlət və döyüş bayraqları", həmin institutun baş elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev "Naxçıvan xanlığının diplomatiyası və müdafiə məsələləri", "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Nəzakət Əsədova "Naxçıvan xanlığının tarixinin öyrənilməsi və təbliğində muzeylərin rolu" mövzularında çıxış etmişlər.

Bildirilmişdir ki, qızılı ipəkdən hazırlanmış və bir-birinə üfüqi şəkildə tikilmiş üç parçadan ibarət olan dövlət bayrağının eni 144, uzunluğu 178 santimetrdir. Bayrağın üzərində 6 ədəd səkkizguşəli ulduz və nəbati elementlər əks edilmişdir. Üst zolağın üzərində qızılı saplarla ərəb qrafikası ilə "Qurani-Kərim"in "Səff" surəsindəki "Allah dərgahından kömək, qələbə yaxındır, möminlərə müjdə ver, Ya Mühəmməd" ayəsi həkk edilmişdir.

Döyüş bayrağının uzunluğu 145, eni isə 159 santimetrdir. Moruğu rəngli bayrağın yuxarı sağ tərəfində yerləşən mavi rəngli lövhəcikdə "Bismillah", sol tərəfində "Qurani-Kərim"dən "əl-Fəth", bir qədər aşağıda isə "əl-Bəqərə" surələrinin bir hissəsi yazılmışdır.

Tədbirə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova yekun vurmuşdur.

**Nərgiz İSMAYILOVA**

## Əmək miqrasiyası və qaçqın məsələlərinə dair təlim keçirilib



Noyabrın 30-da Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti tərəfindən "Əmək miqrasiyası və qaçqın məsələləri"nə dair təlim keçirilib. Aidiyyəti dövlət orqanları əməkdaşlarının iştirakı ilə keçirilən tədbirdə Dövlət Miqrasiya Xidməti rəisinin müavini Elnur Məmmədov bildirib ki, Azərbaycan dövlətinin inkişafının yeni mərhələsində bütün sahələr kimi, miqrasiya sahəsində də köklü keyfiyyət dəyişikliyi baş verib. Ölkəmizin regionda və dünyada inkişafın lideri mövqeyinin beynəlxalq miqyasda qəbul edilməsi, dövlət başçısı tərəfindən təmin edilən investisiya cəlbediciliyinin, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, siyasi sabitliyin bərqərar olunması respublikamızı həm də miqrantlar üçün cəlbedici məkana çevirib.

Ölkəmizdə, eləcə də muxtar respublikamızda əmək miqrasiyasının vəziyyətinə diqqəti çəkən Elnur Məmmədov siyasi və iqtisadi böhran prosesləri səbəbindən əksər ölkələrdə iqtisadi fəallığın və investisiya qoyuluşlarının azaldığını, belə şəraitdə çoxsaylı iş yerlərinin ixtisar edildiyini bildirərək deyib ki, əksinə, Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında iqtisadi artım və iqtisadiyyata investisiyaların yatırılması prosesi davam edir. Bu isə əmək bazarında xarici işçi qüvvəsinin çoxalması ilə müşahidə olunur. Artım Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə edilən müraciətlərin sayında da özünü göstərir. Maraqlı burasıdır ki, bu müraciətlərin yalnız kiçik bir hissəsi yüksəkixtisaslı mütəxəssislərə aiddir. Buna görə də milli əmək bazarının ixtisassız əcnəbi işçi qüvvəsindən qorunması, yüksəkixtisaslı mütəxəssislərin iqtisadiyyatımıza cəlb edilməsinin stimullaşdırılması günün tələbidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin məsləhətçisi Tofiq Rəcəbli "Ölkəmizdə miqrasiya proseslərinin tənzimlənməsinin hüquqi əsasları" mövzusunda çıxış edib. Miqrasiya qanunvericiliyindəki yeniliklər, miqrasiya proseslərinin idarə edilməsi sahəsinə nəzarətin əhəmiyyəti, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə görülən işlərin vacibliyi, bu sahədə qanunvericiliyin ilbəil daha da təkmilləşdirilməsinin qazandırdığı üstünlüklər, hüquqi sənədlərin tənzimlədiyi sahələr üzrə müvafiq prosedurların sadələşdirilməsindən söz açan natiq bildirib ki, Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti fəaliyyət göstərdiyi qısa müddət ərzində böyük inkişaf yolu keçib.

Miqrasiya orqanlarının yaradılmasından ötən müddət ərzində miqrasiya proseslərinin idarə olunması və tənzimlənməsi məqsədilə həm qanunvericilik, həm də institusional sahədə bir sıra əsaslı tədbirlərin həyata keçirildiyini, bir sıra yeni normativ-hüquqi aktların qəbul olunduğunu, mövcud qanunvericilik aktlarına əlavə və dəyişikliklər edildiyini, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının müdafiəsinin daim diqqət mərkəzində saxlanıldığını, elektron informasiya resurslarının yaradıldığını tədbir iştirakçılarının diqqətinə çatdıran Tofiq Rəcəbli deyib ki, muxtar respublikanın miqrasiya orqanları fəaliyyəti dövründə bir sıra yeniliklərə imza atıb.

"Azərbaycan Respublikası qanunvericiliyində əcnəbilərin əmək hüququnun tənzimlənməsi" mövzusunda danışan Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərov bildirib ki, Azərbaycan Respublikasının qanunvericiliyi və ölkəmizin iştirakçısı olduğu beynəlxalq müqavilələr ilə digər qaydalar müəyyən olunmayıbsa, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər əmək münasibətlərində ölkə vətəndaşları ilə eyni hüquqlardan istifadə edir və eyni vəzifələri daşıyırlar. Müəyyən vəzifələr tutmaq, yaxud müəyyən fəaliyyət növləri ilə məşğul olmaq ölkə vətəndaşlığı ilə şərtləndirildiyi hallarda əcnəbilər və vətəndaşlığı olmayan şəxslər belə vəzifələr tuta və belə fəaliyyətlə məşğul ola bilməzlər. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ölkə qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada investisiya və sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər. Bu halda onlar Azərbaycan Respublikası qanunları ilə digər qaydalar nəzərdə tutulmayıbsa, ölkə vətəndaşları üçün müəyyən olunmuş hüquqlardan istifadə edirlər və vəzifələr daşıyırlar.

Təlim zamanı Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarından Samir Abbasovun, Kənan Məmmədovun, Rahib Kərimovun çıxışları olub. Çıxışlarda əmək miqrasiyasının tənzimlənməsi prosesində yaranan problemlərin həlli üsullarından, qaçqınlıq və bu sahədə yaranan problemlərin həlli yollarından, beynəlxalq aləmdə qaçqın məsələlərindən söhbət açılıb, videoçarx vasitəsilə bu sahələrdə dünyada və Azərbaycanda mövcud vəziyyət iştirakçıların diqqətinə çatdırılıb.

Sonda təlimin nəticələri ilə bağlı müzakirələr aparılıb.

**Səbuhi HÜSEYNOV**

# Sədərəyin mübarizə və inkişaf yolu

*“Sədərək” sözünün xalqımızın düşüncəsinə həkk olunmuş bir mənası var. Bu məna özündə qəhrəman, əyilməz, düşmənlə üz-üzə mərdanə dayanan bir Vətən torpağı simvolunu xarakterizə edir. Sədərək Azərbaycanın istər ərazi bütövlüyünün, istərsə də tarixi, siyasi, coğrafi mövqeyinin qorunmasında çox böyük rola malikdir. Ölkəmizin cənub-qərb sərhədlərində üç dövlətlə həmsərhəd olan, Azərbaycanı ümumi Türk dünyası ilə bağlayan Sədərək rayonu ötən əsrin sonlarında mənfur düşmənlə döyüşdə xeyli şəhid versə də, üzərinə bombalar yağdırılsa da, bu ölüm və ya qalım mübarizəsində ikinci yolu seçərək birincilərdən olmağı şərəflə bacarıb.*



1990-1993-cü illərdə mənfur ermənilər Sədərəyə 14 dəfə genişmiqyaslı hücum planı həyata keçirməyə çalışıblar. Ancaq hər dəfə də güclü müqavimətlə qarşılaşıblar. Bu qeyri-bərabər döyüşlərdə 108 nəfər şəhid olub, 500-ə yaxın insan yaralanıb. Şəhid olanlardan 58 nəfəri rayonun öz yetirmələri olub. 20-25 il bundan əvvəl ərazisi döyüş poliqonuna çevrilən, inzibati və yaşayış binaları top mərmiləri nəticəsində dağıdılan Sədərək rayonu bütün çətinliklərə mərdliklə sinə gərərək ən yaxın tariximizə adını qızıl hərflərlə yazdırıb. Ötən 20 ildə isə böyük bir inkişaf yolu keçərək hərtərəfli tərəqqi yoluna qədəm qoyub. Sərhəd bölgəsi Sədərək bu gün yağı düşmənlə üz-üzə inkişafın, sabitliyin, mətinliyin əyani mənzərəsini özündə əks etdirməklə həm də müqəddəs sərhədlərimizin müdafiəsinə öz töhfəsini verməkdədir. Məhz buna görə də Vətən həm də Sədərəkdən başlayır...

Sədərək rayon kimi muxtar respublikanın inzibati ərazi bölgüsünə 1990-cı il avqustun 28-də daxil edilib. Rayon mərkəzi olan indiki Heydərabad qəsəbəsi ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə salınıb. Ulu öndər 2002-ci ildə sədərəklilərlə görüşündə bu haqda demişdir: ***“Sədərək rayonunun Naxçıvan Muxtar Respublikasında, o cümlədən Azərbaycanda xüsusi yeri var. Böyük bir kənd olmuş və rayon statusu almış Sədərək həmişə Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir. Mən indi qəsəbəni belə görəndə həddindən artıq sevinirəm. Çünki sizin, yəqin ki, xatirinizdədir. Vaxtı ilə 1977-1978-ci illərdə mən Azərbaycanın başçısı olduğum zaman kənddən aralı bu qəsəbənin salınması haqqında qərar verdim. Nə üçün kənddən aralı? Ona görə ki, o vaxtlar ermənilər yavaş-yavaş bu torpaqlara iddia edir, “bu, bizimdir, o, bizimdir” deyirdilər. Ona görə mən burada o vaxtlar bu qəsəbəni salmaq barədə göstəriş verdim. Layihələr hazırlandı, qəsəbə tikildi və sədərəklilərin bəziləri də buraya köçüb yaşamağa başladılar”.***

Ötən dövr ərzində bu rayonun inkişafı diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 15 mart 2000-ci il tarixdə imzaladığı “Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında” Sərəncam bölgənin hərtərəfli inkişafında mühüm əhəmiyyət kəsb etməklə yanaşı, bu qədim yurd yerinin insanlarında sabaha olan inamı da artırıb.

Rayon mərkəzi Heydərabad qəsəbəsinin özünəməxsus gözəlliyi var. Mənfur düşmənlə cəmi bir neçə yüz metr məsafədə üz-üzə yerləşən bu qəsəbədə bir-birindən yaraşıqlı inzibati və yaşayış binaları, istirahət parkı, rayonun idarə və müəssisələri üçün tikilmiş yeni qurucluluq ünvanları göz oxşayır. Buradakı bütün yollar öz rahatlığı ilə seçilir. Qəsəbədaxili bütün yollara asfalt döşənib, işıqlandırma sistemi quraşdırılıb. Ətrafda yaradılmış yaşıllıq zolaqları və gülkarlıqlar bu gözəlliyi daha da artırır. Səliqə-sahman və sakitlik isə buranın daimi həyat tərzinə çevrilib. İstənilən binanın pəncərəsindən düşmən postlarının göründüyü bu qəsəbədə həyatın normal tərzdə davam etməsi bura yolu düşən hər kəsi təəccübləndirmək üçün yetərlidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2010-cu il oktyabrın 5-də muxtar respublikaya səfəri çərçivəsində Sədərək rayonunun Heydərabad qəsəbəsinə gəlib, burada istifadəyə verilən yeni obyektlərin açılış mərasimində iştirak edib. Ölkə başçısı qəsəbə sakinləri qarşısında çıxış edərək deyib: ***“Sizi qəsəbənin açılışı münasibətilə təbrik edirəm. Gözəl evlər, binalar tikilib. Qəsəbə yeni dövrə qədəm qoyur. Bütün işlər ən müasir səviyyədə görülübdür. Çox şadam ki, respublika rəhbərliyi bütün bu işləri qısa müddət ərzində çox böyük keyfiyyətlə gördü. Bu, doğrudan da böyük hadisədir.***

***Heydərabad qəsəbəsinin Azərbaycan tarixində çox mühüm yeri vardır. Siz düşmənlə üz-üzəsiniz, sərhəddəsiniz və vaxtilə buralar dağıdılmışdı. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və işğalçı siyasəti bu bölgələri də əhatə etmişdir. Məhz ulu öndər Heydər Əliyevin fəaliyyəti və qətiyyəti, müdrikliyi nəticəsində Naxçıvan özünü qoruya bilmişdir... Əgər o vaxt Heydər Əliyev Naxçıvana gəlməsəydi və burada bütün işləri lazımi səviyyədə görməsəydi, Naxçıvanın aqibəti çox acınacaqlı ola bilərdi. Biz qədim torpağımızı itirə bilərdik”.***

Sədərək kəndi muxtar respublikanın ən böyük yaşayış məntəqələrindən biridir. 15 min 500-dən çox sakini olan rayonun 8 min 500 nəfərdən çoxu bu kənddə yaşayır. Sədərək kəndi iri yaşayış məntəqəsi kimi öz inkişafı ilə diqqət çəkir. Məsələn, kənddə hazırda böyük bazar kompleksi, iaşə obyektləri, 450 nəfərlik şadlıq evi, çörəkbişirmə, avtomobil təmiri, xalçatoxuma sexləri fəaliyyət göstərir. 2010-cu ildə burada 26 çarpayılıq rayon Mərkəzi Xəstəxanası, 2 nömrəli tam orta məktəbin binası, 2012-ci ildə Sədərək Kənd Mərkəzi, 2014-cü ildə 1 nömrəli tam orta məktəb üçün bina, Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binası istifadəyə verilib. Hazırda isə kənddə iki şəhid ailəsi üçün ev tikilir. Kənddaxili yolların abadlaşdırılması, eyni zamanda Heydərabad qəsəbəsi ilə kəndi birləşdirən yeni avtomobil yolunun istifadəyə verilməsi gediş-gəlişi xeyli asanlaşdırmaqla bərabər, vaxta da qənaət edilməsinə şərait yaradır.

Sədərək kəndi həm də kənd təsərrüfatının inkişaf etdirildiyi mühüm yaşayış məntəqələrindəndir. Kəndin 2721 hektar əkin sahəsində, əsasən, taxılçılıq və meyvəçilik inkişaf etdirilir. Burada 2 min başa yaxın iribuynuzlu, 11 min başdan çox xırdabuynuzlu heyvan saxlanılır.

Qaraağac kəndi də indi öz müasir görkəmi ilə göz oxşayır. 2004-cü ildə burada kənd tam orta məktəbinin binası yenidən qurularaq müəllim və şagirdlərin istifadəsinə verilib. 2009-cu ildə isə kənddə kompleks quruculuq işləri aparılıb, yeni kənd və xidmət mərkəzləri istifadəyə verilib, kəndin yollarına qara örtük salınıb.

Qeyd edək ki, ötən 20 il ərzində, ümumilikdə, Sədərək rayonunda çox böyük quruculuq və abadlıq tədbirləri həyata keçirilib. Belə ki, 1996-cı ildən 1 noyabr 2015-ci ilədək rayonda 1782 şagird yerlik 4 ümumtəhsil məktəbi, 1 uşaq musiqi məktəbi, 2 uşaq bağçası, 3 səhiyyə müəssisəsi, 4 mədəniyyət obyekti, 2 idman obyekti, 2 kənd mərkəzi tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib.

Rayon üzrə ötən illərin statistikasının müqayisəli təhlilinə baxsaq, bütün sahələrdə uğurlu nəticələrin əldə olunduğunu müşahidə etmiş olarıq. 2002-ci illə müqayisədə 2015-ci ilin yanvar-oktyabr aylarında əsas kapitala yönəldilmiş investisiyanın həcmi 127,9 dəfə artıb. 2002-ci ildə rayonda istehsal olunan sənaye məhsulunun həcmi 473,9 min manat idisə, cari ilin yanvar-oktyabr aylarında bu, 3 milyon 845 min manat olub ki, bu da sənaye məhsulunda 8,1 dəfə artım olduğunu göstərir.

Sədərək rayonu aqrar bölgə olduğundan burada kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzində olub. Kənd təsərrüfatı istehsalçılarına lazımi dövlət dəstəyinin göstərilməsi rayonda ilbəil həm əkin sahələrinin artırılmasına, həm də tədarük olunan məhsulun həcmində özünü göstərib. 15 il bundan əvvəl – 2000-ci ildə rayonun əkin sahələrinin ümumi həcmi 379 hektar idisə, bu il əkin sahələrinin həcmi 3574 hektara çatıb. Həmin dövrdə taxıl əkini 185 hektar olmuşdusa, cari ildə taxıl əkini sahələrinin həcmi 2132 hektar təşkil edib ki, bu da taxıl əkilən sahələrin həcminin 11,5 dəfə artdığını göstərir. Əldə olunmuş müsbət nəticələri heyvandarlıq təsərrüfatları haqqında da demək mümkündür. Rayonda soyuducu anbarın istifadəyə verilməsi, eləcə də muxtar respublikada mütəmadi olaraq kənd təsərrüfatı yarmarkalarının təşkili təsərrüfatçıların satış probleminin həll olunmasına öz töhfəsini verib.

Sədərək rayonunda ötən dövr ərzində həyata keçirilən sosial-iqtisadi islahatlar əhalinin sosial rifahını təmin edib. Belə ki, ildən-ilə əldə olunan müsbət nəticələr insanların doğma yurda bağlılığına hərtərəfli şərait yaradıb. Bunu əhalinin şəxsi vəsaiti hesabına tikilən evlərin statistikasında da görmək mümkündür. Əgər 2003-cü ildə rayon üzrə tikilən evlərin həcmi cəmi 200 kvadratmetr təşkil edirdisə, 2015-ci ilin yanvar-sentyabr aylarında bu rəqəm 21,5 dəfə artaraq 4300 kvadratmetrə çatıb.

Rayonda əhalinin sosial rifahı üçün görülən işlərdən çoxsaylı misallar gətirmək olar. Ancaq əhalinin şəxsi vəsaiti hesabına tikilən evlərin müqayisəli həcmini ona görə xatırlatdıq ki, fərdi ev tikintisi insanlarda uzaq illərə hesablanmış məqsədin təzahürü, olduğu bölgədə yaşayıb-işləmək arzusunun nəticəsidir. Bunu belə bir fikirlə də ifadə etmək mümkündür ki, düşmənin döyüş postlarının yaxınlığında yerləşən Sədərəkdə yaşamaq və işləməyin “sirri” əhalinin dövlətimizə və onun gücünə olan inamıdır.

***Yuxarıda qeyd olunan rəqəmlərin hər biri sərhəd bölgəsi Sədərəyin ötən dövr ərzində hərtərəfli inkişaf yolunda olduğunu göstərir. Muxtar respublikada bütün sahələr üzrə həyata keçirilən kompleks tədbirləri bu rayonun timsalında bir daha görmək mümkündür. Tabii ki, Sədərəyin hərtərəfli inkişafı hər gün onu açıq gözlə görən düşmənlərimiz üçün gözdağıdır. Bir zaman uğrunda qanlar axıdılan torpağın düşmənə ən böyük cavabı da elə budur! Məgər aparılan mübarizələrin əsl məqsədi də inkişaf etmək deyilmi?***

**Səbuhi HƏSƏNOV**

# Dövlət Baytarlıq Xidmətinin yaradılmasının 10 illiyi qeyd olunmuşdur

*Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin yaradılmasının 10 illiyi münasibətilə tədbir keçirilmişdir. Tədbirdən əvvəl xidmətin əməkdaşları ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət etmiş, abidənin önünə gül dəstələri qoymuş, dahi şəxsiyyətin adını daşıyan muzeydə ümummilli liderimizin həyat və fəaliyyətini özündə əks etdirən eksponatlarla tanış olmuşlar.*



Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin akt zalında keçirilən tədbirdə xidmətin rəisi Əbil Əbilov məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 noyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti yaradılmışdır.

Vurğulanmışdır ki, Baytarlıq Xidmətinin yarandığı vaxtdan ötən hər il yeni baytarlıq obyektlərinin tikilməsi, mövcud obyektlərin əsaslı təmir edilməsi, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, kəndlərdə baytar məntəqələrinə yüksək iş şəraitinin yaradılması, vaxtaşırı olaraq onların baytarlıq preparatları və ləvazimatlarla təchiz edilməsi diqqət mərkəzində saxlanılmışdır.

Belə ki, 2005-2015-ci illər ərzində Şərur, Sədərək, Şahbuz, Babək rayonlarının baytarlıq idarə və laboratoriyaları üçün yeni inzibati binalar tikilmiş, laboratoriyalar müasir avadanlıqlarla təmin olunmuşdur. Naxçıvan şəhərində isə Dövlət Baytarlıq Xidməti, Elmi-Tədqiqat Baytarlıq Mərkəzi, baytarlıq laboratoriyası, Naxçıvan Şəhər Baytarlıq İdarəsi və Naxçıvan Muxtar Respublikası Zoobaytar Təchizat İdarəsi yeni binalarla təchiz olunmuş, dərmanların, bioloji preparatların saxlanılması üçün iki böyük soyuducu kamera qurulmuşdur. Bununla bərabər, ayrıca cərrahiyyə otağı, elektron lövhə və baytarlıq təbabətinə aid materiallarla təmin olunmuş sinif otaqları, laboratoriya heyvanlarının saxlanılması üçün vivarium və yem anbarları yaradılmış, ümumilikdə, muxtar respublika üzrə 100-ə yaxın kənd baytar məntəqəsi tam təminatlı yeni iş otaqlarına köçürülmüşdür.

Laboratoriya şəbəkələri, xüsusilə Mərkəzi Baytarlıq Laboratoriyası son 10 ildə ən yeni avadanlıqlarla təmin olunmuş, ötən illərdə aparılan bakterioskopik, bakterioloji, seroloji, toksikoloji, virusoloji müayinələr sanitar-epizootoloji vəziyyətin aydınlaşmasına şərait yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Elmi-Tədqiqat Baytarlıq Mərkəzinin fəaliyyəti mütəmadi olaraq rayon baytarlıq idarələrinin apardığı tədbirlərlə qarşılıqlı əlaqələndirilmiş, aparılan baytarlıq işləri elmi şəkildə əsaslandırılmış, əməkdaşlar tərəfindən müxtəlif mövzularda elmi-tədqiqat işləri aparılmış və bu istiqamətdə işlər davam etdirilir.

Bildirilmişdir ki, Naxçıvan Dövlət Universitetində Baytarlıq təbabəti ixtisası tədris olunur. Bu ali təhsil ocağında, həmçinin Naxçıvan Dövlət Texniki Kollecində Baytarlıq ixtisası üzrə təhsil alan tələbələrin yaradılmış şəraitdən səmərəli istifadə etmələri diqqət mərkəzində saxlanılır. Son illər təhsilini başa vurmuş tələbələrin əksəriyyəti baytarlıq xidmətinin müxtəlif sahələrində işlə təmin edilmiş, Elmi-Tədqiqat Baytarlıq Mərkəzində elmi-tədqiqat işlərinə cəlb olunmuşdur.

“Baytarlıq xidmətinin qarşısında qoyulan vəzifələrdən biri də heyvandarlıqda heyvanların baş sayı ilə bərabər, onların cins tərkibinin və məhsuldarlığının süni mayalanma yolu ilə artırılmasıdır. Bu istiqamətdə də ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilmiş, şəhər, rayon, kənd, qəsəbə baytarlıq məntəqələrinin bazasında fəaliyyət göstərən süni mayalanma şəbəkələri yaradılmış, zəruri avadanlıq və nəqliyyat vasitələri ilə təmin olunmuşdur”, – deyən Əbil Əbilov onu da bildirmişdir ki, baytarlıq xidmətinin işi təkcə heyvanların sağlamlığının qorunması, peyvəndlərin vaxtlı-vaxtında aparılması ilə bitmir. Bu gün bütün dünyada hamılıqla qəbul olunan fakt ondan ibarətdir ki, baytarlıq xidməti çoxşaxəli, iqtisadi, istehsal və biotəhlükəsizlik sistemidir. Çünki əhalinin ərzaq təminatının və onun təhlükəsizliyinin çox vacib və mühüm məsələləri məhz burada həll olunur. Belə deyim var: həkimlər ayrı-ayrı insanları müalicə edirsə, baytarlar bütün bəşəriyyəti qoruyur. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, son illər muxtar respublikamızda heç bir yoluxucu xəstəliklər qeydə alınmamışdır.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Elmi-Tədqiqat Baytarlıq Mərkəzinin direktoru Qadir Fərhadov, Ordubad və Şərur Rayon Baytarlıq idarələrinin rəisləri Pamir Hüseynov, Cəlal Kamalov, Dövlət Baytarlıq Xidmətinin gənc mütəxəssisləri Elnur Əliyev və Rübabə Hüseynova çıxış etmişlər.

Sonda xidmətin bir qrup əməkdaşı mükafatlandırılmışdır.

**Kərəm HƏSƏNOV**

***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın tarixi abidələri nəinki Azərbaycan tarixini, həmçinin bütün Yaxın Şərq və Cənubi Qafqazda baş verən tarixi-mədəni prosesləri izləmək baxımından olduqca əhəmiyyətlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2001-ci ilin aprelində "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncam imzalamış və buna uyğun olaraq Azərbaycan alimlərindən ibarət ekspedisiya yaradılmışdır. 2005-ci ildə Gəmiqaya abidəsinə beynəlxalq elmi ekspedisiya təşkil edilmişdir. Ekspedisiyanın apardığı uğurlu tədqiqat işi nəticəsində Gəmiqaya haqqında onlarla monoqrafiya, yüzlərlə elmi məqalə yazılaraq bu abidənin qədim Azərbaycan xalqına aid olduğu sübut edilmişdir.***

*Tariximizin daş yaddaşı*

# Abidələrin tədqiqi Naxçıvanın tarixinə yeni səhifələr yazır



Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 6 dekabr 2005-ci il tarixli Sərəncamından sonra Naxçıvanda bu sahəyə diqqət daha da artırılmış, tarix və mədəniyyət abidələri qısa müddət ərzində yenidən qeydiyyata alınaraq pasportlaşdırılmışdır. Tarix və mədəniyyət abidələrinin, o cümlədən arxeoloji abidələrin tədqiqi Azərbaycan tarixinin bir sıra mühüm məsələlərinə yenidən nəzər salmağa imkan vermiş, tariximizin qaranlıq səhifələri üzə çıxarılmışdır.

2006-cı ildən başlayaraq Naxçıvanda ondan artıq arxeoloji ekspedisiya fəaliyyət göstərir ki, onların ikisi beynəlxalq ekspedisiyadır. Beynəlxalq ekspedisiyalar Naxçıvan abidələri haqqında həqiqətlərin dünya elmi ictimaiyyətinə çatdırılmasında mühüm rol oynamışdır.

Naxçıvançay vadisində yerləşən I Kültəpə qədim yaşayış yerinin əhəmiyyəti elm aləminə ötən əsrin 50-ci illərindən bəllidir. Məlum olduğu kimi, vaxtilə Cənubi Qafqazda Eneolit mədəniyyəti I Kültəpə yaşayış yerində aparılan araşdırmalar zamanı ilk dəfə olaraq elmi dövriyyəyə çıxmışdı. Bu abidənin alt təbəqələrinin Neolit, yaxud Eneolit dövrünə aid olması ilə bağlı xeyli fikirlər söylənsə də, məsələ tamamilə həll olunmamışdı. Kültəpənin Eneolit mədəniyyətini, Naxçıvanın digər abidələrindən aşkar olunan Eneolit mədəniyyəti ilə qarşılaşdırmaq üçün 2013-cü ildə yenidən bu abidənin tədqiqinə başlanmışdır. Yaşayış yerindən götürülən kömür analizləri qalınlığı 8-9 metr arasında olan mədəni təbəqənin e.ə. VII minilliyin ikinci yarısı və VI minilliyin birinci yarısına aid olduğunu göstərdi (e.ə. 6070-5400). Bu isə Cənubi Qafqaz arxeologiyasında Neolit dövrü kimi qəbul edilmişdir.

I Kültəpə, Uçan Ağıl, Uzunoba, Şorsu, Yeni yol, Zirinclik kimi abidələrdə aparılan arxeoloji tədqiqat işləri zamanı Naxçıvanda Eneolit mədəniyyətinin inkişaf ardıcıllığını müəyyən etmək mümkün olmuşdur. Cənubi Qafqazda indiyədək aparılan araşdırmalar zamanı Neolit və Son Eneolit arasındakı məsafə müəyyən edilməmişdir. Bu baxımdan Naxçıvan abidələri nəinki Azərbaycanın və Naxçıvanın, həmçinin bütün Cənubi Qafqaz arxeologiyasının problem məsələlərini öyrənmək üçün əhəmiyyətlidir.

Naxçıvan tarixinin öyrənilməsi üçün Ovçular təpəsində aparılan araşdırmaların mühüm əhəmiyyəti vardır. Ovçular təpəsində aparılan araşdırmalar burada insanların e.ə. V minilliyin ortalarından başlayaraq məskunlaşdığını göstərir. Arxeoloji qazıntılar zamanı başlıca olaraq bir-birindən tamamilə fərqlənən iki tikinti dövrü aşkar edilmişdir. Birinci dövr üçün yarımqazmatipli evlər, ikinci dövr üçün isə dördkünc formalı təkotaqlı və çoxotaqlı evlər xarakterikdir. Ovçular təpəsinin dördkünc arxitekturası Cənubi Qafqazın, o cümlədən Naxçıvanın Eneolit dövrünün erkən mərhələsinə aid dairəvi evlərdən tamamilə fərqlənir. Ovçular təpəsindəki evlərin arxitekturası Azərbaycanın və Şərqi Anadolunun həmin dövr abidələrindən aşkar olunan evlərlə uyğundur. Bu abidənin saman üzlü və saman qarışıq sarı, ya da qırmızı rəngli keramikası Cənubi Qafqaz və Naxçıvanda Neolit və Eneolit dövrünün erkən mərhələsindən mövcud olmuşdur. Son illər Sirab yaxınlığında aşkar olunan mövsümi yaşayış yerləri Eneolit dövründə bu tip keramikanın istehsalında fasiləsizliyin olduğunu göstərir. Lakin Eneolit dövrünün orta mərhələsi Naxçıvanda kifayət qədər yaxşı öyrənilməmişdir. Ovçular təpəsində az miqdarda olsa da, boyalı keramika məmulatı aşkar olunmuşdur. Ehtimal ki, bu tip keramika yaşayış yerinin cənubla, xüsusilə Ubeyd mədəniyyəti ilə əlaqələrini göstərir. Son illər Xalac, Şortəpə və Sirabdan aşkar edilən Eneolit dövrünə aid keramika məmulatı da belə əlaqələrin olduğunu sübuta yetirir. 2011-ci ildə Ovçular təpəsindən aşkar olunan Ubeyd mədəniyyətinə aid idxal olunmuş keramika parçası bunu bir daha təsdiq edir.

Ovçular təpəsi yaşayış yeri Qafqaz arxeologiyasının problem məsələlərindən biri olan Eneolit mədəniyyəti ilə Kür-Araz mədəniyyətinin əlaqələrini öyrənmək baxımından da olduqca əhəmiyyətlidir. Bu yaşayış yerinin tədqiqi nəticəsində Naxçıvanın Kür-Araz mədəniyyətinin formalaşdığı əsas regionlardan biri olduğu təsbit olunmuşdur.

Naxçıvan şəhəri yaxınlığında yerləşən Duzdağ mədənlərinin tədqiqi Ovçular təpəsi arxeoloji ekspedisiyasının əsas tədqiqat obyektlərindən biri olmuş, tədqiqat nəticəsində müəyyənləşdirilmişdir ki, Duzdağ mədənləri dünyanın ən qədim mədənləridir.

Cənubi Qafqaz arxeologiyasında diskussiyaya səbəb olan məsələlərdən biri də boyalı qabları ilə fərqlənən Orta Tunc dövrü mədəniyyəti idi. Şərur rayonunun Dizə kəndi yaxınlığında yerləşən Qızqala yaşayış yerində aparılan araşdırmalar zamanı Orta Tunc dövrünə aid 2,5-3 metr qalınlığında mədəni təbəqənin varlığı müəyyən olunmuşdur. Bu, Naxçıvanda I Kültəpə, II Kültəpə, və Qızılburundan sonra dördüncü mühüm abidədir. Yaşayış yeri boyalı qablarla fərqlənən Orta Tunc dövrü mədəniyyətinin Naxçıvanla bağlı olduğunu bir daha təsdiq edir. Qızqala yaşayış yerində, həmçinin Bəzəkli, Qazançıqala, Qurddağ, Göynük qalası və digər abidələrdə müdafiə divarlarının aşkar olunması Orta Tunc dövründə Naxçıvanda böyük hərbi potensiala malik olan tayfaların yerləşdiyini təsdiq edir. Bu tayfaların bir qismi oturaq, digər bir qismi yarımköçmə maldarlıqla məşğul olmuşdur. 2015-ci ilin ikinci yarısında bu abidələrin tədqiqi zamanı yeni faktlar aşkara çıxarılmışdır. Müəyyən olunmuşdur ki, Arpaçay vadisində məskunlaşan qədim tayfaların məskəni Naxçıvandır. E.ə. II minilliyin ortalarında Yaxın Şərq və Cənubi Qafqazda baş verən ictimai-siyasi proseslər, tayfalararası ziddiyyətlərin artması Arpaçay vadisində, Şərur düzündə yaşayan tayfaların müdafiə mövqeyi tutmağa məcbur etmiş, yaşayış yerində iri daşlardan qala divarları tikilmişdir. Bu tip qala divarlarına Cənubi Qafqazın digər Orta Tunc dövrü yaşayış yerlərində rastlanmaması Naxçıvanda yaşayan tayfaların regionun siyasi həyatında mühüm rol oynadığını göstərir.

Şərur rayonunun Oğlanqala kəndi yaxınlığında yerləşən Oğlanqala yaşayış yerində 2008-2011-ci illərdə arxeoloji araşdırmalar davam etdirilmişdir. Araşdırmalar Oğlanqalanın hələ Erkən Dəmir dövründən məskunlaşdırıldığını göstərir. Bu baxımdan 2010-cu ildə şimal qala bürcündə aparılan araşdırmaların mühüm əhəmiyyəti oldu. Belə nəticəyə gəlmək olar ki, Oğlanqala şəhəri və onun hakimiyyətində olan ərazilər xarici işğalçılara qarşı müttəfiqlərlə birlikdə mübarizə aparmışlar. Assirioloq alimlərdən Paul Zimanski, Mirjo Salvini, Eccart Dolenoro, Eccart Frahm Oğlanqaladan və Naxçıvan şəhərindən aşkar olunan mixi yazıları oxumuş və onların Urartu yazıları olmadığını təsdiq etmişlər. E.ə. 8-ci yüzilliyin əvvəllərində Ağrı və Horom düzənliyində xeyli Urartu qalaları tikilmişdir. Araşdırmalar təsdiq edir ki, Oğlanqala Urartu şəhəri olmamışdır. Buradan aşkar edilmiş arxitektura qalıqları, kompleksin planı, gil qabların özünəməxsusluğu göstərir ki, Oğlanqala Şərur düzənliyini əhatə edən yerli krallığın mərkəzi olmuşdur. Urartulular heç vaxt bu ərazini işğal etməmişlər. Çünki burada Urartu qalalarının tikilməsi haqqında heç bir epiqrafik və arxeoloji dəlil yoxdur.

Urartunun sərhədləri yaxınlığında yerləşən Oğlanqaladan tapılan keramika və digər nümunələr Oğlanqalanın Urartu ilə, həmçinin İran və Gürcüstanla ticarət əlaqələri saxladığını göstərir. Saraydan tapılan və üzərində mixi işarələr olan təsərrüfat küpünün parçaları Oğlanqalanın özünəməxsus yazı sistemi olduğunu təsdiq edir.

Oğlanqalanın tədqiqi buradakı tikintilərin başlıca olaraq Orta Dəmir dövrünə və Atropatena dövrünə aid olduğunu göstərir. Bundan başqa, orta əsr və müasir dövrdə də burada müvəqqəti yaşayış olmuşdur.

Son illər Naxçıvanın qədim abidələri ilə yanaşı, orta əsr abidələrinin öyrənilməsinə də xüsusi qayğı göstərilmişdir. Belə abidələrdən biri də Culfa rayonunda olan Əlincəqala abidəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 11 fevral 2014-cü il tarixli Sərəncamında deyilir: "Əlincəqala" tarixdə Azərbaycan xalqının əyilməzlik və mübarizlik rəmzi kimi böyük şöhrət qazanmış, 1387-1401-ci illərdə, 14 il ərzində Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərmişdir".

Bənzərsiz və özünəməxsus müdafiə sistemi olan Əlincəqalanın bərpası həmçinin tariximizin də bərpası deməkdir. Azərbaycanın və Yaxın Şərqin müxtəlif hakim sülalələrinin istinadgahı olan Əlincəqala teymurilərin zamanında dağıntıya məruz qalmış və yenidən bərpa olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonunda yerləşən "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" 2015-ci il 7 oktyabr tarixli Sərəncamı da tarix və mədəniyyət abidələrimizə diqqət və qayğının ifadəsidir.

*Yaxın illər ərzində minillik tariximizdən xəbər verən digər abidələrimiz də bərpa edilərək milli-mədəni irsimizə qovuşdurulacaqdır.*

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***

## Multikulturalizmə dair fənlərin tədrisinə xüsusi diqqət göstərilir

***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin əməkdaşı Vidadi Rzayev Naxçıvan Dövlət Universitetində (NDU) tədris olunan Multikulturalizmə giriş və Azərbaycan multikulturalizmi fənlərinin monitorinqini aparmaq məqsədilə həmin ali təhsil ocağında olub.***

Universitetin Sosial idarəetmə və hüquq fakültəsində monitorinq keçirilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dünyada nümunəvi tolerantlıq örnəyi, sivilizasiyalar və mədəniyyətlərarası dialoq məkanı, zəngin multikultural ənənələrə malik ölkə kimi tanınır" fikirlərini səsləndirən ali təhsil ocağının Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, dosent Qərib Allahverdiyev çıxışında mədəni, etnik, dini müxtəlifliyin tənzimlənməsində düzgün siyasət modellərindən birinin də multikulturalizm olduğunu nəzərə çatdırıb.

Sonra universitetin Fəlsəfə və sosial iş kafedrasının müdiri, dosent Novruzəli Rəhimov Sosial iş ixtisasında təhsil alan I kurs tələbələrə "Multikulturalizm və xarici siyasət" mövzusunda açıq dərs keçib.

Açıq dərslə bağlı fikirlərini bölüşən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin əməkdaşı Vidadi Rzayev ümummilli lider Heydər Əliyevin multikulturalizm siyasətinin ölkəmizin demokratik inkişafının tərkib hissəsi olduğunu, Azərbaycanın bu gün dünyada məhz multikulturalizm mərkəzi kimi tanındığını bildirib.

Qeyd edilib ki, ölkə rəhbərinin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan indi özünün multikulturalizm modelini dünyaya təqdim edir. O, ölkəmizdə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil və tarixlərinin qorunub saxlanılmasına, öyrənilməsinə, inkişaf etdirilməsinə, təbliğinə geniş şərait yaradıldığını diqqətə çatdırıb. Dövlət başçısının 2014-cü il mayın 15-də imzaladığı Fərman ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradıldığını və onun dünyada yeganə Multikulturalizm Mərkəzi olduğunu bildirib.

Vurğulanıb ki, ildə iki dəfə keçirilən monitorinq sözügedən fənləri daha da təkmilləşdirmək, mövcud nöqsanları aradan qaldırmaq məqsədilə aparılır.

Diskussiya şəraitində keçirilən monitorinqdə tələbələri və müəllimləri maraqlandıran suallara aydınlıq gətirilib, bir sıra təkliflər səsləndirilib.

Qeyd edək ki, multikulturalizm dünyanın 11 ölkəsinin nüfuzlu ali məktəblərində, Azərbaycanın isə 20 ali məktəbində tədris olunur.

**Mina QASIMOVA**

## Belə bir diyarda yaşamaq və işləməkdən böyük qürur duyuruq

Ümumtəhsil məktəblərinin pedaqoji kadrlarla təmin olunması bu sahədə yeni uğurlara imza atılmasında başlıca amillərdən biridir. Bu tədbir təhsilin keyfiyyətcə daha da yaxşılaşmasına müsbət təsir göstərir, bu məqsədlə hər il təhsil yarmarkaları təşkil olunur. Keçirilən yarmarkalarda təyinat alan yüzlərlə gənc müəllim muxtar respublikanın ucqar dağ kəndlərində, sərhəd yaşayış məntəqələrində pedaqoji fəaliyyətə başlayır. Maraqlı cəhət orasıdır ki, bu müəllimlərin içində Azərbaycanın digər bölgələrindən olan gənclərimizin də sayı az deyil.

Ordubad rayonunun ucqar dağ kəndlərinə təhsil yarmarkası vasitəsilə göndəriş alan Azərbaycanın digər bölgələrindən olan müəllimlərlə görüşmək, onlara yaradılan şəraitlə tanış olmaq üçün Dırnıs kəndinə üz tutduq.

Gədəbəydə doğulan Malik və Müşviq Məmmədovlar əmioğludurlar. Onlar orta təhsillərini bir yerdə alıblar, eyni ildə "Naxçıvan" Universitetinə daxil olublar. 2013-cü ildə universiteti bitirdikdən sonra ordu sıralarında xidməti borclarını yerinə yetiriblər. Hərbi xidməti başa vurduqdan sonra gələcək həyatlarını Naxçıvanda qurmağa qərar veriblər. 2015-ci ilin sentyabr ayında Naxçıvan şəhərində keçirilən təhsil yarmarkasında hər iki gənc təyinatını Ordubad rayonunun Dırnıs kənd tam orta məktəbinə alıb.

Məktəb direktoru Əmiraslan Fərəcovun sözlərinə görə, gənc müəllimlər hər bir şəraiti olan evlə təmin ediliblər.

Müşviq Məmmədov Azərbaycan dili və ədəbiyyatı müəllimidir. Naxçıvanı çox sevdiyini bildirən gənc müəllim muxtar respublikadakı sabitliyə, inkişafa və onlara yaradılan şəraitə görə minnətdarlığını bildirdi. Əmioğlusu Malik də Müşviqlə eyni fikirdədir.

2015-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsini bitirən, Ordubad rayonunun Kələki kənd tam orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi Günel Məmmədli isə sumqayıtlıdır. "Naxçıvan torpağında doğulmuşam. Ailəmlə birgə mən uşaq olanda Sumqayıta köçdük. Bakı Dövlət Universitetinin məzunuyam. Universiteti bitirdikdən sonra Naxçıvana gəldim. Sanki bu torpaq məni özünə çəkirdi. Ailəm yenə də Sumqayıtda yaşayır".

Bakı şəhərinin Xətai rayonunda doğulan Rauf İmanəliyev Naxçıvan Dövlət Universitetinin Kimya müəllimliyi ixtisasını bitirib. Rauf Naxçıvanda yaşamağa qərar verib və müəllimlik fəaliyyəti ilə məşğul olmaq üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə müraciət edib. Ordubad rayonunun Nürgüt kənd tam orta məktəbinə göndəriş alan gənc müəllim bir müddət sonra bu kənddə ailə qurub. Rauf artıq iki ildir ki, burada çalışır.

Adim Yusifov da "Naxçıvan" Universitetinin məzunudur. Universiteti bitirdikdən sonra yaşadığı Gəncə şəhərinə qayıdan Adim Gəncə Dövlət Universitetinin Fizika ixtisasını bitirən Gülşən Yusifova ilə ailə həyatı qurur. Yenicə ailə qurmuş gənclər Naxçıvana gəlir və iş üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə müraciət edirlər. Müraciətləri dəyərləndirilən gənc ailə Ordubad rayon Xurs kənd tam orta məktəbinə təyinat alır. Adim deyir ki, muxtar respublikada həyat şəraitinin yüksək olması, gənc ailələrə diqqət və qayğı onları burada yaşamağa həvəsləndirib.

Həmsöhbət olduğumuz digər müəllimlər də Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafına, bu sahədə çalışanlara yüksək şərait yaradıldığını bildirdilər. Yurdumuzun təbii gözəlliklərindən, naxçıvanlıların qonaqpərvərliklərindən, səmimiyyətlərindən razılıqla danışdılar. Belə bir diyarda yaşamaq və işləməkdən böyük qürur duyduqlarını dilə gətirdilər. Biz də onlara gələcək fəaliyyətlərində uğurlar arzulayırıq.

**✍ Arzu ABDULLAYEV**

## “Nuh yurdu” intellektual oyununun qalibi
### “Nuh yurdu” komandası olub



*Naxçıvan şəhərindəki Gənclər Mərkəzində yeniyetmələr arasında “Nuh yurdu” intellektual oyununun Naxçıvan Muxtar Respublika birinciliyinə yekun vurulub.*

Birincilik Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, muxtar respublikanın Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi və Naxçıvan Muxtar Respublikası “Gənclərin İntellektual İnkişaf Mərkəzi” İctimai Birliyinin təşkilatçılığı ilə keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin şöbə müdiri Nicat Babayev çıxış edərək intellektual oyunun keçirilmə qaydaları haqqında iştirakçılara məlumat verib.

Bildirilib ki, intellektual oyunun keçirilməsində məqsəd Azərbaycanın, o cümlədən Naxçıvanın zəngin milli mədəniyyətinin və tarixinin təbliği, yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq, eləcə də asudə vaxtlarının səmərəli təşkili istiqamətində yeni üsullar tətbiq etməkdən ibarətdir.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun əməkdaşı Qabil Vəliyev, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Mahir Babayev çıxış edərək iştirakçılara uğurlar arzulayıblar.

Oyunda muxtar respublikanın rayon və şəhərlərində keçirilən birinciliklərdə qalib gəlmiş komandalar iştirak ediblər. 8 komandanın iştirak etdiyi oyun 2 mərhələ və finaldan ibarət olub.

Final mərhələsinə “Möminə xatın”, “Arpaçay”, “Nuh yurdu” və “Zirvə” komandaları vəsiqə qazanıblar. Oyunun nəticələrinə görə I yerə Naxçıvan şəhərinin “Nuh yurdu” komandası, II yerə Kəngərli rayonunun “Möminə xatın” komandası, III yerə isə Şərur rayonunun “Arpaçay” komandası layiq görülüb.

Qaliblər təşkilatçılar tərəfindən diplom, fəxri fərman və kuboklarla mükafatlandırılıblar.

## İdman

### İdmançımız dünya çempionatında gümüş medal qazanıb

Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına və idmançılara göstərilən diqqət öz bəhrəsini qazanılan uğurlarda da göstərir. 2015-ci ilin son aylarında idmançılarımızın beynəlxalq arenalarda qazandığı nailiyyətlərə daha biri əlavə olunub. Ötən həftə Rusiyanın Medın şəhərində universal döyüş növü üzrə dünya çempionatı keçirilib. Bu çempionatda Azərbaycan yığması da iştirak edib. Rusiyaya millimizin heyətində Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirməsi də yollanıb. 80 kiloqram çəki dərəcəsində Azərbaycanı idmançımız Xəyal Abdullayev təmsil edib və o, dünya çempionatını gümüş medalla başa vurub.

Xəyal Abdullayev ilk görüşündə azərbaycanlı idmançı Mehman Hüseynovu məğlub edib və yarımfinala yüksəlib. Onun bu mərhələdəki rəqibi özbək idmançı Uluqbek Qadoyev olub. Keçirdiyi bu görüşdə də rinqi qələbə ilə tərk edən Xəyal Abdullayev həlledici qarşılaşmada rusiyalı idmançı Aliasxab Xizriyevlə qarşılaşıb. Final döyüşündə məğlub olan idmançımız gümüş medalla kifayətlənib.

Dünya çempionatı barədə fikirlərini bizimlə bölüşən Xəyal Abdullayev dedi: “Bu dünya çempionatı mənim üçün çox önəmli idi. Avropa çempionatında gümüş medal qazanmışdım və istəyirdim, dünya birinciliyində fəxri kürsünün ən yüksək zirvəsinə qalxam. Buna görə yarışa ciddi hazırlaşmışdım. Naxçıvanda məşqlərimi davam etdirdikdən sonra Azərbaycan yığmasının təlim-məşq toplanışında iştirak etdim. Dünya çempionatında ilk iki turu uğurla başa vurdum. Lakin finalda üstünlük əldə etsəm də, bunu qoruya bilmədim. Məşqlər üçün hər bir şərait yaradılıb və bundan maksimum istifadə etmək istəyirəm”.

Qeyd edək ki, dünya çempionatını ikinci pillədə başa vuran Xəyal Abdullayevə diplom və medal təqdim edilib.

### Voleybol üzrə Naxçıvan şəhər birinciliyi keçirilib

Dünən Naxçıvan Dövlət Universitetinin idman zalında “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında ali və orta ixtisas müəssisələrinin oğlan komandaları arasında voleybol üzrə Naxçıvan şəhər birinciliyi keçirilib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi birinciliyin keçirilməsində məqsəd voleybol idman növünün gənclər arasında təbliğ edilməsidir.

Altı komandanın mübarizə apardığı birincilik Beynəlxalq Voleybol Federasiyasının qaydalarına əsasən olimpiya sistemi üzrə keçirilib. Yarış başlanmazdan əvvəl çıxış edən Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov və federasiyanın sədr müavini Aydın Mirzəyev yarışın mahiyyəti və qaydaları haqqında iştirakçılara məlumat veriblər.



Bütün rəqiblərini üstələyən Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Musiqi Kollecinin komandaları həlledici qarşılaşmada üz-üzə gəliblər. Daha baxımlı oyun sərgiləyən Naxçıvan Dövlət Universitetinin komandası birinciliyin qalibi olub.

Sonda qalib komandaya diplom və hədiyyə təqdim edilib.

### Basketbol üzrə muxtar respublika çempionatında 12-ci tura yekun vurulub

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi basketbol üzrə muxtar respublika çempionatında 12-ci turun oyunları keçirilib.*

Çempionatın favoriti “Naxçıvan” komandası ötən tur əldən verdiyi liderliyi geri qaytarıb. İlk olaraq “Babək” komandasının qonağı olan naxçıvanlı basketbolçular meydanı 41:32 hesablı qələbə ilə tərk ediblər. Bununla, turnir cədvəlindəki oyun sayını bərabərləşdirən “Naxçıvan” komandası məğlubiyyətsizlik seriyasını davam etdirib.

12-ci tur daha çox meydan sahiblərinin qələbəsi ilə yadda qalıb. Turun ən böyük hesablı qələbəsi Ordubadda qeydə alınıb. “Şərur” komandasını qəbul edən ordubadlılar rəqibi 62 xallıq fərqlə məğlub ediblər – 80:18. “Naxçıvan” komandası isə doğma arenada “Lokomotiv”i sınağa çəkib və aktivinə 2 xal yazdırmağa müvəffəq olub – 55:26. “Naxçıvan” Universiteti komandası da ev sahibi olma amilindən maksimum yararlanıb. “Sədərək” komandasını qəbul edən tələbələr 45:33 hesablı qələbə qazanıblar. Bu turda yalnız bir komanda – “Culfa” səfərdə sevinə bilib. “Babək” komandası qarşısında qələbə onlar üçün bir az çətin olub – 47:55.

✍ Ceyhun MƏMMƏDOV

| S | Komandalar | O | Q | M | T/F | X |
|---|---|---|---|---|---|---|
| 1. | Naxçıvan | 12 | 12 | 0 | 858-417 | 24 |
| 2. | Ordubad | 12 | 11 | 1 | 721-379 | 23 |
| 3. | Culfa | 12 | 8 | 4 | 577-541 | 20 |
| 4. | Babək | 12 | 6 | 6 | 521-493 | 18 |
| 5. | Lokomotiv | 12 | 5 | 7 | 411-511 | 17 |
| 6. | “Naxçıvan” Universiteti | 12 | 3 | 9 | 443-667 | 15 |
| 7. | Şərur | 12 | 2 | 10 | 305-572 | 14 |
| 8. | Sədərək | 12 | 1 | 11 | 399-676 | 13 |

*“Bayrağımız qürur mənbəyimizdir” mövzusunda Şahbuz şəhərində yeni istifadəyə verilmiş Bayraq Meydanında tədbir keçirilib.*

## Bayraq Meydanında tədbir

50 nəfərdən çox gəncin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Gənclər və İdman İdarəsinin rəisi Vüqar Muradov istifadəyə verilmiş Bayraq Meydanı haqqında tədbir iştirakçılarına geniş məlumat verib.

Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin müəllimi Rauf Bağırov Azərbaycanın dövlətçilik tarixi, dövlət atributları haqqında gəncləri məlumatlandırıb. Sonda gənclərin Bayraq Meydanı ərazisində gəzintisi olub.

Qeyd edək ki, tədbir Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil edilmişdi.

## İməciliklər mütəşəkkilliklə davam etdirilir



Muxtar respublikamızda diqqət mərkəzində də saxlanılan məsələlərdən biri də ekoloji problemlərin həlli, ətraf mühitin qorunması, təbiətin zənginləşdirilməsidir. Bu məqsədlə həyata keçirilən iməciliklər artıq bir ənənə şəklini alıb.

Noyabrın 28-də keçirilən növbəti iməciliklərdə yaşıllıq zolaqlarına aqrotexniki qulluq göstərilib, belə sahələr ağac və gül kollarının əkini ilə genişləndirilib. Belə ki, Naxçıvan şəhər sakinləri Sement Zavodunun yaxınlığında 2,5 hektarlıq ərazidə 1800 ədəd meyvə, Şıxmahmud kəndi yaxınlığında 100 ədəd meşə və 300 ədəd həmişəyaşıl, Böyükdüz kəndi yolunda 400 ədəd meyvə ağacı əkiblər.

Şərur rayonunun Yuxarı Daşarx, Gümüşlü və Dizə kəndlərində, ümumilikdə, 1300 ədəd meşə ağacı əkilib.

Babəklilər rayonun Nehrəm kəndi yolunun kənarlarında 650 ədəd, Babək qəsəbəsində 350 ədəd həmişəyaşıl ağac, Nehrəm kəndində 250 ədəd meşə ağacı əkiblər.

Ordubad rayonunda keçirilən iməciliklərdə Naxçıvan-Ordubad magistral yolunun Dəstə kəndi ərazisində 300, Əylis düzündə 350, rayonun girəcəyində 320 ədəd meyvə ağacı əkilib.

Culfa rayonunun sakinləri tərəfindən isə Əlincəqalanın ətəklərində 700 ədəd meşə və 400 ədəd həmişəyaşıl ağac, Əlincəqalaya gedən yolun kənarlarında 300 ədəd meşə, rayonun kəndlərində isə, ümumilikdə, 800 ədəd meyvə ağacı əkilib.

Kəngərli rayonunda keçirilən iməciliklərdə Xıncab kəndində 4 min, Yurdçu kəndində 400, Püsyan kənd yolunun kənarlarında 1060 ədəd meyvə, Naxçıvan-Sədərək magistral yolunun Xok, Qabıllı kəndləri hissəsində 390 ədəd meşə ağacı əkilib.

Şahbuzlular yeni istifadəyə verilmiş Bayraq Meydanının ətrafında 1,2 hektarlıq ərazidə 1130 ədəd meyvə ağacı əkiblər.

Sədərək rayonunun Qaraağac kəndində 3 hektarlıq ərazidə və kənd yolunun kənarında 400 ədəd meyvə ağacı əkilib.

Həmin gün Naxçıvan və Ordubad şəhərlərində, Şərur rayonunun Dizə, Babək rayonunun Zeynəddin, Culfa rayonunun Camaldın, Kəngərli rayonunun Şahtaxtı, Şahbuz rayonunun Mahmudoba kəndlərində, Sədərək rayonunun Heydərabad qəsəbəsində yaşayan ahıl vətəndaşların həyətlərində abadlıq və təmizlik işləri aparılıb.

## Şərur Rayon Mərkəzi Xəstəxanasında yeni tibbi avadanlıq quraşdırılıb

***Bu gün istər Naxçıvan şəhərində, istərsə də ən ucqar dağ kəndlərində əhaliyə nümunəvi tibb xidməti göstərilir, yeni tibb müəssisələri tikilir, səhiyyə ocaqları müasir avadanlıqlarla təchiz edilir, insanlar arasında mütəmadi olaraq səhiyyə maarifi işi aparılır.***

Hazırda səhiyyə ocaqlarının maddi-texniki bazası möhkəmləndirilir, onlar müasir cihazlar və aparatlarla təchiz olunur. Belə aparatlardan biri də bu günlərdə Şərur Rayon Mərkəzi Xəstəxanasında quraşdırılıb. Yeni quraşdırılan flüoroqrafiya aparatının üstünlükləri çoxdur. Bu avadanlıq müxtəlif qəzalar zamanı meydana gələn sınıq, çıxıq və digər patologiyaları bir neçə saniyəyə təyin edir. İndiyədək istifadə olunan rentgen cihazlarında bu müddət bir neçə saat çəkirdi. Flüoroqrafiya cihazı vasitəsilə döş qəfəsi patologiyalarının təyini, dayaq-hərəkət sisteminə aid sümüklərin, birləşmələrin deyformasiyasının, sümük qaralmalarının, oynaqlarda iltihab proseslərinin, sümüyün bədxassəli şişlərinin müəyyən olunmasını da həyata keçirmək mümkündür. Bu müasir avadanlıqdan istifadə səhiyyə sistemində operativliyin artmasına imkan yaradıb.

Məlumat üçün qeyd edək ki, qısa müddət ərzində bu xidmətdən 400-dən artıq xəstə yararlanıb.

## Növbəti test-sınaq imtahanı

*Noyabr ayının 29-da muxtar respublikanın ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında ümumi test-sınaq imtahanı keçirilib.*

Ənənəvi olaraq təşkil edilən belə imtahanlarda məqsəd şagirdlərin biliyinin yoxlanılması və elmlərə marağının artırılması, ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarına hazırlıqdır.

İmtahanlar səhər saat 10[00]-da başlayıb və iki saat yarım davam edib.

Şagirdlərə öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün hərtərəfli şərait yaradılıb. Məlumat üçün bildirək ki, test-sınaq imtahanında şagirdlərə iş nömrəsi verilib və kodlaşma aparılıb. Həmin iş nömrəsi vasitəsilə şagirdlər imtahanın nəticələrini ***www.istedad21.com*** saytından öyrənə bilərlər.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Şərur rayonunun Çərçiboğan kəndində yaşamış Abbasov İlyas Məmmədkərim oğlunun adına olan 732[A] inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 904